PARADIGMA, No.3, 2025, səh.92-102
https://doi.org/10.30546/30015.2025.3.059

# MƏİŞƏT ZORAKILIĞINA MƏRUZ QALMIŞ ŞƏXSLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**T.Q. Həsənova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Tunzala.Hasanova@student.au.edu.az

**Xülasə:** Məqalədə məişət zorakılığı, onun növləri, yaradan səbəblər, qarşısının alınması yolları və qanunvericiliklə tənzimlənməsi əks olunmuşdur. Məişət zorakılığı Azərbaycanda geniş yayılmış gender problemidir. Demək olar əksər ailələrdə məişət zorakılığı özünü müəyyən formalarda büruzə verir. Bu hal ailələrdə və yaxud qeyri-rəsmi nikahda olan şəxslər, yaxın qohumlar arasında fiziki, cinsi şiddət, psixoloji təzyiq və təcrid edilmə kimi formalarda müşahidə olunur. Bəs Azərbaycan cəmiyyətində müşahidə edilən məişət zorakılığı halları digər cəmiyyətlərdə baş verən zorakılıq halları ilə oxşardırmı və bu haqda araşdırmalar onun hansı – yerli, yoxsa beynəlmiləl bir problem olduğunu ortaya qoymuşdur? Məişət zorakılığının qarşısının alınması üçün nə kimi tədbirlər görülməlidir, bunun həlli kimlərdən asılıdır və həlli nə kimi əhəmiyyətə malikdir? Yuxarıdakı suallara cavab verməklə mən məqaləmdə zorakılığın bütün dövlətlər üçün qlobal problem olduğunu və bu problemin həlli üçün cəmiyyətlə bərabər həyata keçirilməyə çalışılmasını göstərmişəm.

**Açar sözlər:** Ailə, məişət, cəmiyyət, zorakılıq, qadın, uşaq, fərd.

## Giriş

Zorakılıq - bir şəxsin digər şəxsə qarşı fiziki, psixoloji, emosional, cinsi və ya iqtisadi güc tətbiq etməsidir. Zorakılıq, insanın azadlığına, bədən və ruhi bütövlüyünə zərər verən bir davranış formasıdır. Bu, fərdlərarası münasibətlərdə və ya cəmiyyət səviyyəsində baş verə bilər.

Məişət zorakılığı nədir? Məişət zorakılığı - ailə daxilində və ya birgə yaşayan şəxslər arasında baş verən zorakı davranışlardır. Bu zorakılıq bir tərəfin digərinə güc tətbiq etməsi və ya onu nəzarət altında saxlamağa çalışması ilə xarakterizə olunur. Məişət zorakılığı çox vaxt qadınlara, uşaqlara və yaşlılara qarşı baş verir, lakin kişilər də bu zorakılığa məruz qala bilər. Ailə və məişət zorakılığı anlayışları bir-birinə yaxın olsa da, aralarında bəzi önəmli fərqlər mövcuddur.




Ailə zorakılığı - ailə üzvləri arasında baş verən zorakı davranışlardır. Bu, qan qohumları, nikah və ya qəyyumluq münasibəti olan şəxslər arasında fiziki, psixoloji, cinsi və ya iqtisadi

zorakılıq şəklində təzahür edir. Məsələn: valideynin uşağa qarşı zorakılığı, ər-arvad arasında zorakılıq, qardaş-bacı arasında zorakılıq, valideynlərə qarşı zorakılıq və digər hallarla müşahidə olunur.

Məişət zorakılığı - birgə yaşayan şəxslər arasında, ailə münasibətləri olsun və ya olmasın, baş verən zorakı davranışlardır. Bu anlayış ailədən daha geniş dairəni əhatə edir. Məsələn: keçmiş həyat yoldaşları arasında zorakılıq, qeyri-rəsmi (nikahsız) birlikdə yaşayan şəxslər arasında zorakılıq, eyni evdə yaşayan, lakin qohum olmayan şəxslər arasında zorakılıq halları ilə özünü göstərir.

Ailə və məişət zorakılığının fərqlərini daha aydın ifadə olunması üçün cədvəl şəklində təsvir olunur:

| **Meyar** | **Ailə zorakılığı** | **Məişət zorakılığı** |
|---|---|---|
| Münasibət növü | Qan qohumluğu, nikah və ya qəyyumluq əsaslı | Birgə yaşamaq əsaslı |
| Əhatə dairəsi | Daha məhdud (yalnız ailə üzvləri) | Daha geniş (ailə və ya birgə yaşayan qeyriləri) |
| Hüquqi tanıma | Ailə qanunvericiliyi ilə tənzimlənir. | Cinayət və məişət zorakılığı qanunları ilə tənzimlənir. |

Məişət zorakılığı (ailədaxili zorakılıq) - bir ailə üzvünün digər ailə üzvünə qarşı fiziki, psixoloji, cinsi, iqtisadi və ya sosial təzyiq göstərməsi ilə müşayiət olunan zorakı davranışlardır. Bu zorakılıq formaları fərqli formalarda özünü göstərə bilər və onların hər biri insanın fiziki, emosional və sosial rifahına ciddi zərər vurur. Aşağıda məişət zorakılığının əsas növləri haqqında ətraflı məlumat verilmişdir:

1. Fiziki zorakılıq

Bu, ən çox tanınan və müşahidə olunan zorakılıq növüdür. Fiziki zorakılıq insanın bədəninə birbaşa zərər vermək məqsədilə edilən hərəkətləri əhatə edir. Misallar:

Döymək, təpik vurmaq, sillə vurmaq, yandırmaq, kəskin alətlərlə xəsarət yetirmək, boğmaq, itələmək aclq və ya susuzluqla cəzalandırmaq, tibb yardımından məhrum etmək kimi hallarla müşahidə olunur.

2. Psixoloji (emosional) zorakılıq

Psixoloji zorakılıq insanın emosional və psixoloji sağlamlığına yönəlmiş davranışları əhatə edir. Bu zorakılıq çox zaman uzunmüddətli travmalarla nəticələnir. Misallar: daimi tənqid və alçaltma, hədə-qorxu və təhdidlər,səssiz qalmaq və ünsiyyətdən imtina, qadağalar və izolyasiya (dostlarla və ailə ilə görüşə qoyulan qadağalar), nəzarətçi davranışlar və güvən pozuntusu hesab edilir.

3. Cinsi zorakılıq

Bu zorakılıq növü bir şəxsin razılığı olmadan və ya zorla cinsi hərəkətlərə məruz qalmasını əhatə edir. Misallar: cinsi əlaqəyə məcbur etmək, cinsi istismar, razılıq olmadan toxunmaq, cinsi təhqir və zorla pornoqrafik materiallara baxdırmaq, ailə daxilində cinsi münasibətə məcbur etmə (qadın və ya uşaqlar üzərində) kimi müşahidə olunur.

4. İqtisadi zorakılıq

İqtisadi zorakılıq fərdin maddi imkanlarına, maliyyə azadlığına nəzarət etməklə, onu asılı vəziyyətə salmağa yönəlir. Misallar: pul verməmək və ya pulu əlindən almaq, işə getməyə icazə verməmək, bank kartlarına və hesablarına çıxışı qadağan etmək, maddi ehtiyaclarını qarşılamamaq, öz gəlirini yalnız öz məqsədləri üçün istifadə etmək kimi hallarla özünü göstərir.

5. Sosial zorakılıq

Sosial zorakılıq fərdin cəmiyyətlə əlaqəsini məhdudlaşdıraraq onu təcrid etmək məqsədi daşıyır.Misallar: ailə üzvləri və dostlarla görüşə icazə verməmək, evdən çıxmağa qadağa qoymaq, telefona, sosial mediaya və ya internetə çıxışa qadağa, sosial fəaliyyətlərə qatılmağa mane olmaq hesab olunur.

Zorakılıq, fərdin bədən və ruhi bütövlüyünə, şəxsi sərbəstliyinə və insan ləyaqətinə qarşı yönəlmiş ciddi bir təhdiddir. Məişət zorakılığı isə bu zorakılığın ən geniş yayılmış və eyni zamanda ən gizli formalarından biridir. Ailə daxilində və ya birgə yaşam çərçivəsində baş verən bu zorakılıq forması, xüsusilə qadınları, uşaqları və digər həssas qrupları hədəf alaraq onların təhlükəsizliyini, psixoloji rifahını və sosial inkişafını zədələyir. Fiziki, psixoloji, cinsi, iqtisadi və sosial zorakılıq formalarında təzahür edən məişət zorakılığı, həm fərdi, həm də cəmiyyət səviyyəsində ağır nəticələr doğurur. Bu səbəbdən zorakılığın qarşısının alınması üçün hüquqi tənzimləmələr, maarifləndirmə tədbirləri və sosial müdafiə mexanizmləri gücləndirilməlidir.

## 1. Məişət zorakılığının səbəbləri və zorakılığa məruz qalmış şəxslərin psixoloji vəziyyətləri

Cəmiyyətimizin bir çox üzvləri bir sıra zorakılığa məruz qalır. Zorakılığa məruz qalmış şəxslər həm psixoloji cəhətdən həm də sağlamlığ cəhətdən zərbə alır. Zorakılığın qurbanı istənilən hər bir şəxs ola bilər [7]. Məişət zorakılığı çox zaman qadına və uşağa qarşı törədilən zorakılıq olduğuna görə buna gender əsaslı şiddət də deyə bilərik. Məişət zorakılığının hansı səbəblərdən törədilməsi ilə bağlı bir sıra tədqiqatlar həyata keçirilmişdir. Aparılan nəticələr göstərmişdir ki, məişət zorakılığının qazanılmış və ya sonradan öyrənilmiş bir davranış forması olduğunu göstərmişdir. Bu halları isə çox zaman öz ailəsi tərəfindən zorakılıq görmüş və birbaşa olaraq valideyni tərəfindən şiddətə məruz qalmış şəxslər törədir. Aydın məsələdir ki, qadına qarşı zorakılıq geniş yayılmışdır. Qadın fiziki,cinsi,psixoloji,sosial və iqtisadi zorakılığa

məruz qala bilər [2]. Qadına qarşı zorakılığın əsas səbəblərindən biri kimi ayrı-seçkiliyə yol verilməməsidir. Məişət zorakılığı ilə mübarizəyə dair mühüm prinsipləri nəzərdə tutan sənədlər mövcuddur. “Qadınlara qarşı zorakiliq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” konvensiyalar mövcuddur [4]. Əsasən belə bir nümunə gösərmək olar ki, evdə atası tərəfindən anasına və eləcə də özünə qarşı şiddət görmüş kəslər gələcəkdə şiddət törətməyə daha çox meyilli olurlar. Belə olduqda isə insanlar şiddəti normal hal kimi qəbul edirlər. Ailədə və sosial mühitdə gündəlik həyat norması kimi qəbul etmiş olurlar. Zorakı mühitdə yaşayan qızları göstərə bilərik ki, ailəsində anasına qarşı törədilən zorakılığa şahid olmuş qızlar öz gələcək ailələrində şiddətlə üzləşməsin, lakin çox zaman vəziyyət bunun əksi olur. Bəzən onlar ailə qurmaqdan çəkinirlər. Bu isə ailə mühitində baş vermiş hadisələrlə əlaqələndirilir. Daha sonra isə məişət zorakılığının yaranmasının səbəbinə zorakı şəxsin qurban üzərində güc və nəzarət əldə etmək niyyəti olduğu fikri irəli sürüldü. Psixoloji cəhətdən çox çətinlik çəkirlər. İnsanlarla sosiallaşmaqda çətinlik çəkirlər. Kiməsə güvənməkdən, kimdənsə yardım istəməkdən qorxurlar və çəkinirlər. İlk iş olaraq həmin qadınlarla söhbətlər aparılır və həmin travma əsasında suallar verilir. Və yenidən həyata inteqrasiya etmək lazımdır. Zorakı şəxs müəyyən şiddət taktikaları ilə qurbanın hərəkətlərinə, düşüncəsinə və seçimlərinə nəzarət edərək onu idarə edir və beləliklə də qurbanın yalnız onun istəklərini yerinə yetirməsinə nail olur. Bu kimi görünən taktikalar qurbanda qorxuya səbəb olur, qarşısındakı insana qarşı güvəni itmiş olur. Digər bir səbəb kimi isə göstərmək olar ki, cəmiyyətdə gücün və səlahiyyətin kişinin əlində cəmlənməsi, kişinin qadına tabe olması kimi dini inancların sosial norma sayılmasıdır. Məişət zorakılığı qohum-tanışlar, bir məhəllədə yaşayan adamlar, qapı qonşuları kimi cəmiyyətin ailənin əhatəsində olan şəxslərin törədilmiş zorakılığa bəraət qazandırması, günahı hər zaman qurbanda görməsi, ənənəvi olaraq kişilərin dominant və yoldaşını nəzarətdə saxlamalı olduğu inancı ilə daha da sosial yüklü bir problemə çevrilir. Daha sonra isə göstərmək olar ki, müəyyən qurumların bəzi inancları da mühüm rol oynayır. Bunlardan qeyd etmək olar ki, din, media, təhsil, hüquqi və sosial yardım sistemi zorakılığın davam etməsinə təsir edir. Medianın məişət zorakılığı hallarına adi xəbər kimi yanaşması və az işıqlandırması; zorakılıq qurbanlarının şikayətlərinə düzgün formada baxılmaması; utandırma; zorakı şəxsə müvafiq cəzaların verilməməsi və ya verilən cəzaların icrasına nəzarət edilməməsi; təhsildə gerilik şagirdlərə kiçik yaşlarından belə halların aşılanmaması, təhsildən yayınmalar; sosial işin və sosial yardım sisteminin yoxluğu; həkimlərin hər hansı bir xəsarətlə gətirilmiş pasiyentdəki zədələrin məişət zorakılığı zəminində baş verdiyindən şübhələnməməsi və ya bəlli olarsa da müvafiq addımlar atmaq üçün mexanizmlərin olmaması kimi hallar məişət zorakılığının cəmiyyətdə ayaq açıb yeriməsinə şərait yaradan amillərdəndir. Daha sonra isə geniş şəkildə

qeyd edə bilərik ki, məişət zorakılığı və ailədaxili problemlərin çoxluğunu uşaqlar təşkil edir [5]. Uşaqlara qarşı zorakılıq halları məktəbdə- müəllimləri və sinifyoldaşları tərəfindən həyata keçirilə bilər. Bu zaman uşaqlarda psixoloji cəhətdən müəyyən sarsıntılar meydana gəlir. Daha sonra isə belə bir fikir üzərində dayana bilərik ki, uşaqlara qarşı kobud rəftarların aşağıdakı növləri vardır:

1. Fiziki güc tətbiq etməklə, məktəbdə böyük sinif şagirdləri tərəfindən kiçik məktəblinin hədələnməsi.

2. Valideynləri tərəfindən ehtiyaclarının nəzərə alınmaması və uşağa qarşı sevginin göstərilməməsi.

3. Uşağın alkoqolizmə, narkomanlıq və s. Kimi vərdişlərə həvəsləndirilməsi.

4. Arzu olunmayan hamiləlikdən doğulan uşaqlar və s. [5].

Uşaqlara qarşı zorakılıq hallarına isə bir sıra amilləri göstərə bilərik.

1. Uşağın bədənində izlərə rast gəldikdə- məsələn; açıq yara, sümüklərdə çatlar, sınıqlar və s.

2. Uşağın davranışında dəyişikliklər- məsələn; qorxmaq hissi, narahat olmaq, məktəbə getməmək hissi, yoldaşlarına qarşı kobud rəftar və s.

3. Uşaqda baxımsızlıq əlamətləri- məsələn; pis qoxu, saçlarının çirkli olması, nazik və çirkli geyim və s.

Ailədaxili münasibətlərdə münaqişələrin yaranması şiddətin yaranmasına əsas yaradır. Ailədaxili münasibətlərdə başda valideynlər olmaqla, ailə üzvləri arasında münaqişələrə tez-tez rast gəlinə bilər. Şəxsiyyətlərarası ünsiyyət həm münaqişə zamanı, həm də münaqişənin həlli zamanı mühüm rol oynayır. Normal şəxsiyyətlərarası ünsiyyəti isə bir sıra amillər poza bilir: fikir ayrılığı, qarşılıqlı anlaşmazlıq və ya nifrət, tərəflərin özünü həmişə haqlı çıxarmağa çalışması və s. Bundan əlavə, münaqişələri maddi və qeyri-maddi olmaqla iki yerə ayıra bilərik. Maddi münaqişələr adətən tərəflərdən birinin digərindən üstün mövqedə olması səbəbi ilə baş verir. Qeyri-maddi münaqişədə isə inciklik, küskünlük, hətta nifrət kimi hislər özünü büruzə verir. Əgər maddi münaqişə həll olunmazsa, qeyrimaddi münaqişəyə çevrilir. Münaqişənin qeyri-maddi növü daha destruktiv və təhlükəli hesab olunur [1].

Ailədaxili şiddətə bir çox faktorlar səbəb ola bilər. Bəzən kənardan baxdıqda səthi, önəmsiz görünən məsələlər ucbatından belə münaqişələr yaranır ki, bu da şiddətin yaranmasına səbəb olur. Çox halda da, tərəflərdən hər biri özünün haqlı olduğuna inanır və bunu sübut etməyə çalışır. Bu zaman ən effektiv həll üsulu kompromisdir. Lakin güzəştin həddən artıq və davamlı olması qarşı tərəfin tələblərinin daha da artmasına səbəb olur ki, bu da vəziyyəti həll etmək əvəzinə, daha da kəskinləşdirir.

Uşağın vəziyyətini qiymətləndirmək üçün müayinə edilməlidir. Travma ilə bağlı müəyyən sual verilməlidir. Həmin travmanın aradan qaldırılması üçün və yenidən psixoloji cəhətdən yaxşı olması üçün isə həmin şəxslərin yaş xüsusiyyətlərinə uyğun olaraq, insanı cəlb edən disstress xatirələr təkrarlanır. Balaca uşaqlarda isə əsasən psixoloji cəhətdən bərpa prosesi yaşlarına uyğun olaraq, başlarına gəlmiş həmin aspekləri əks etdirən oyunlar irəli sürüldü [7]. Qeyd edə bilərik ki, hər bir uşağın zorakılığa məruz qalmadan yaşamaq hüququ vardır. Və uşaqlara təsir edən mənfi amillərin aradan qaldırılması və müəyyən social xidmətlərin güclü şəkildə fəaliyyət göstərərk uşaqların qorxularını aradan qaldırmalıdır. Çünki uşaqlar bizim gələcəyimizdir. Onların sağlam cəmiyyətdə böyüməsi üçün hər kəs əlindən gələni etməlidir. Ən əsası isə valideyn sevgisi ilə böyüdülməlidirlər ki, gələcəkdə şiddətə meyilli olmasınlar. Və heç kəsə ziyan vurmasınlar.




**2. Məişət zorakılığının hüquq məcəlləsi ilə tənzimlənməsi və qarşısının alınması yolları**

Azərbaycan 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edib ki, bu qanun qadınların əri və ya yaxın münasibətdə olduğu digər şəxslər tərəfindən zorakılığa məruz qaldıqda ədalət mühakiməsinə müraciət etmələrini nəzərdə tutur. Bununla belə, qadınlar zorakılıqdan azad yaşamaq hüquqlarını həyata keçirmək üçün bir sıra mədəni, sosial və iqtisadi maneələrlə üzləşirlər, özlərini və uşaqlarını bu cür vəziyyətlərdən çıxarmaq üçün addımlar atırlar.

Zorakılıq qurbanları daha çox məişət zəminində fiziki və psixi zorakılığa məruz qalırlar. Sorğuya cəlb olunmuş respondentlərin 78%-fiziki, 84%-i psixi zorakılığa məruz qaldığını bildirib [4].

Qadınlara Qarşı Zorakılıq üzrə Qlobal Məlumat Bazasının ölkə hesabatına əsasən, 15-49 yaş arası Azərbaycan qadınlarının təxminən 14%-i həyatlarında ən azı bir dəfə yaxın adamları tərəfindən zorakılığa (fiziki və/yaxud cinsi) məruz qalırlar. 2017-ci ilin məlumatları göstərir ki, 1031 məişət zorakılığı hadisəsinin 807-si (78%) barədə qadınlar və 224-ü (22%) barədə kişilər məlumat vermişdi.

Məişət zorakılığının qarşısının alınması məişət zorakılığı təhlükəsini aradan qaldırmaq üçün həyata keçirilən hüquqi, sosial və çəkindirici tədbirlər deməkdir. Qanunvericiliyə əsasən, məişət zorakılığının qarşısının alınması yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq

Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

Məişət zorakılığı ilə bağlı şikayətlərə baxılarkən aşağıdakı addımlar təmin edilir.

Məişət zorakılığı zəminində törədilmiş və ya qəsdən törədilmiş cinayət haqqında məlumatı özündə əks etdirən şikayət olduqda aşağıdakılar həyata keçirilir: şikayət aidiyyəti orqanlara ötürülür, şikayətçiyə hüquqları izah edilir, şikayətə və zorakılıq əməlinə səbəb olan halların təkrarlanmaması üçün tədbirlər görülür, zərərçəkmiş şəxsin təhlükəsizliyi təmin edilir, yardım mərkəzlərində müvəqqəti sığınacaq, yemək, geyim, tibbi və psixoloji yardım təmin edilir, zərərçəkmiş şəxsə mühafizə orderi verilir.

Mərkəzin tövsiyələrindən bəziləri aşağıdakıları əhatə edir:

- Məişət zorakılığının qarşısının alınması haqqında Qanunun qəbul edilməsindən on il keçməsinə baxmayaraq, onun icra mexanizmi hələ də qeyri-qənaətbəxş fəaliyyət göstərir. Biz, məhkəmə-profilaktika işini gücləndirməliyik. Bütün dünyada tətbiq edildiyi kimi, zorakılıq faktı baş verdikdə psixoloqlar, sosial işçilər, sosioloqlar və hüquq-mühafizə orqanlarının əməkdaşları əlaqələndirilmiş şəkildə hərəkət etməlidirlər.
- Mövcud mexanizmin təkmilləşdirilməsi üçün kifayət qədər səy göstərilmədiyi üçün nəzərdən keçirilməsi tələb olunan çoxsaylı boşluqlar mövcuddur. Məişət zorakılığının qarşısının alınması haqqında Qanunda nəzərdə tutulmuş müdafiə mexanizminin konkret aspektlərinin dəqiqləşdirilməsi tələb olunur.
- Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri gender əsaslı zorakılıq hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi, əmək bazarında qadınlar və kişilər üçün bərabər imkanların yaradılması, qadınların vəzifədə irəliləmək və liderlik imkanlarının daha da genişləndirilməsidir.
- Sığınacaqlarla birlikdə Psixoloji Dəstək Çağrı Mərkəzi yaradılmalı və onun əsas funksiyası zorakılığın ilkin mərhələdə aşkar edilməsi və onun cinayətə çevrilməsinin qarşısının alınmasıdır. Gender əsaslı zorakılığın qarşısını almağın ən təsirli yolu qadınlara qarşı fiziki zorakılıqdan əvvəl gender fərqləri, münaqişə və psixoloji təzyiqlər zamanı qadınlara psixoloji dəstək verəcək Çağrı Mərkəzinin yaradılmasıdır. Mərkəz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Bakı şəhərində təşkil olunacaq və pulsuz müraciətlər və məsləhətlər vasitəsilə dəstək göstərəcək.

BMT-nin Əhali Fondu (UNFPA) bu yaxınlarda COVİD-19 pandemiyasının Azərbaycanda qadın və kişilərin həyatına təsirinə dair çevik gender qiymətləndirməsini həyata keçirdi. Araşdırmaya görə, qadınlar daha çox ayrı-seçkiliyə məruz qaldıqlarını bildiriblər.

Həmçinin, qadınların böyük əksəriyyəti məişət zorakılığı ilə üzləşdiyi təqdirdə hara müraciət edəcəyini bilmir [3].

Maddə 3. Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər

3.0. Məişət zorakılığının qarşısının alınmasının əsas prinsipləri aşağıdakılardan ibarətdir:

3.0.1. hər kəsin Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarının təmin edilməsi;

3.0.2. qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi;

3.0.3. qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olmaqla hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi;

3.0.4. şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi;

3.0.5. zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası;

3.0.6. məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığı.

Maddə 4. Bu Qanunun şamil edildiyi şəxslər

4.0. Bu Qanun aşağıdakı şəxslərə şamil edilir:

4.0.1. yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), ərin və arvadın yaxın qohumlarına, habelə birgə yaşadığı hallarda digər qohumlara;

4.0.2. nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvada;

4.0.3. qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslərə;

4.0.4. qanuni nikahda olmadan birgə yaşayan kişi və qadına, habelə onlarla birgə yaşayan yaxın qohumlarına [8].

Zorakılığın müalicəsi modeli onu dayandırmaq üçün üç əsas komponenti ilə zorakılığı epidemik bir xəstəlik kimi təsvir edir: 1) icmada ötürülməsini dayandırmaq; 2) onun icmada yayılmasının qarşısını almaq; 3) ötürülməyə dayaq verən icma normaları və ya şərtlərini dəyişdirməkdir. Zorakılığın müalicəsinin məqsədi silahlı zorakılıq riski daşıyan məhəllələri daha təhlükəsiz vəziyyətə gətirməkdir və bu xüsusilə, icma qaynar nöqtələrində silahlı zorakılığın azalmasında effektiv olmuşdur. Xüsusilə, modelin məqsədi münaqişələri aşkar etmək və dayandırmaq, xidmət təkliflərini etmək və zorakılığın qəbulu ilə əlaqədar icma inanclarını dəyişmək üçün təlim keçmiş, yüksək-riskli fərdləri riskli gənclərlə əlaqə quran əməkdaş kim təlim keçmiş, yüksək-riskli fərdləri birləşdirməkdir. Bir dəyərləndirmə aşkar etmişdir ki, model əhəmiyyətli dərəcədə qısa vaxtda və zaman keçdikcə hər iki proqram

iştirakçıları və icma gəncləri arasında zorakılığın istifadə edilməsinin (münasibət və norma dəyişikliyi) qəbulunu azaltmışdır. Müqayisəli icmalara nisbətən, proqramın həyata keçirilmə icmalarında gənclər proqram həyata keçirildikdən altı ay və 17 ay sonra mübahisələri həll etmək üçün bir strategiya kimi zorakılığa dəstək vermək ehtimalı əhəmiyyətli dərəcədə azalmışdır [6].







**Nəticə**

Aydın olduğu kimi məişət zorakılığı insan haqlarının tapdanması və intim münasibətdə olan iki bərabər hüquqlu şəxsdən birinin digəri üzərində haqsız dominantlıq əldə etmək istəyidir. Məişət zorakılığına insan haqları çərçivəsindən yanaşmaqla bu işdə dövlətin rolunun nə dərəcədə vacib olduğunu görmək olur.

Dövlətin məişət zorakılığının qarşısının alınmasında başlıca təşəbbüs göstərməsi və sosial islahatlar həyata keçirməsi çox mühüm əhəmiyyətə malikdir. Ənənəvi olaraq məişət zorakılığının ailədaxili, şəxsi məsələ olduğu güman edilərək dövlətin bu işdə ailənin daxili işlərinə qarışmayacaq dərəcədə səlahiyyətinin olmadığı düşünülürdü. Lakin dünyada baş verən qadın haqları hərəkatları və feminist yanaşmanın tətbiq edilməsi nəticəsində məişət zorakılığının qarşısının alınmasında birbaşa dövlətin hansı rolunun və məsuliyyətinin olması üzə çıxdı. Məişət zorakılığı intensiv baş verən icmalarda onun nəticəsi birbaşa bu cəmiyyətlərin inkişafında hiss olunur və məişət zorakılığı hallarının çoxluğu cəmiyyətin və dövlətin özünə çox baha başa gəlir. Belə ki, davamlı olaraq qadının şiddət görməsi onu bir sıra bədən xəsarətləri və sağalmaz zədələrlə, xəstəliklərlə üz-üzə qoyur. Məişət zorakılığının cəmiyyət üçün ən başlıca ağır fəsadlarından biri də ruhi travma almış uşaqlardır. Tədqiatlar nəticəsində məlum olmuşdur ki, məişət zorakılığı mühitində yaşayan uşaqların 60%-i inkişaflarının sonrakı

dövrlərində müəyyən növ psixi problemlər yaşayırlar və bu simptomlar irəliləyərək hətta klinik səviyyəyə də çata bilir. Əlbəttə ki, burada məişət zorakılığı zamanı uşağın buna necə şahid olduğu, onun nəyi gördüyü, nəyi eşitdiyi və neçə yaşında olması da öz təsirini göstərir. Körpə uşaqlar olan ailələrdə baş verən məişət zorakılığı hallarında adətən uşağın yatmaq və yemək rejimində ciddi problemlər yaşandığından uşaqda artıq dərəcədə çığırmaq və ağlamaq vərdişləri yaranır və körpənin normal inkişafı təmin edilmir. Məktəbəqədər uşaqlarda isə həddən artıq utancaqlıq, ünsiyyətdən çəkinmə və digər ibtidai və orta məktəb yaşlı uşaqlar kimi məişət zorakılığının baş verməsində özlərini günahlandırma halları müşahidə edilir. Bəzən psixoloji travmanın təsirindən uşaqlarda əsəb tutmaları, ürəkkeçmələr kimi fiziki əlamətlər müşahidə olunur və bəzən özləri də fiziki şiddətin qurbanlarına çevrilirlər. Zorakılıq cəmiyyətin qəbul etmədiyi haldır və bu hal özünü gələcəkdə daha qabarıq problemlər şəklində göstərə bilir. Bu halların qarşısını almaq üçün ən başlıca addım cəmiyyətin maarifləndirilməsi ən qabaqcıl addım hesab olunur. Təmiz gələcək üçün möhkəm ailələr qurulmalıdır, bu ailələrin tərbiyə edib böyütdüyü şəxslər cəmiyyətə yararlı şəxslər olmalıdır.

**Ədəbiyyat**


1. Ailədaxili şiddətə məruz qalan şəxslərdə özgüvən və aqressiya səviyyələrinin müqasiyəli təhlili. Ə.M.Azər, Bakı, 2021, 80 səh.
2. Avropa insan hüquqları müdafiə mərzkəzinin (EHRAC) qadına qarşı zorakılıq üzrə məhkəmə işlərinin aparılmasına dair bələdçisi. London, 2020. 34 səh.
3. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə sahəsində Tvinninq Metodologiyası – Patrisia, Muroz, Kabrera Turqut Mustafayeva Avropa Şurası, 2022, 51 səh.
4. Məişət zorakılığının yayılma səviyyələrinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın, və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında aparılmış araşdırmaya dair hesabat. Bakı, 2021.
5. Məişət zorakılığından zərər çəkmiş yetkinlik yaşına çatmamış şəxslər üçün xüsusiləşdirilmiş tibbi – psixoloji yardımın göstərilməsinə dair fərdi tövsiyə. C.Məmmədov, t.f.d.,G.Həsənova, İ.Abbasova, R.Məmmədova, S.Hənifiyeva, N.Müslümzadə, Bakı, 2023, 35 səh.
6. Uşaqlara qarşı zorakılığa son qoyulması üzrə yeddi strategiya, Childpact, 2020. 108 səh.
7. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması üzrə metodik vəsait, Ş.İsmayılova, G.Həsənova, S.Babazadə, A.Balayeva, K.Ağayeva, Bakı, 2017, 60 səh.
8. https://e-qanun.az/framework/20131

# PSYCHOLOGICAL CHARACTERISTICS OF PERSONS EXPOSED TO DOMESTIC VIOLENCE

**T.G. Hasanova**
Azerbaijan University, Jeyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract.** The article discusses domestic violence, its management, causes, ways to obtain protection and its cessation in a positive way. Domestic violence is a widespread gender problem in Azerbaijan. Domestic violence manifests itself in its forms in families. This situation is observed in families or in informal marriages, among close relatives in such forms as physical, sexual, psychological pressure and isolation. But is the situation in Azerbaijan related to the cases of domestic violence observed in other countries, and has research on this revealed whether it is a local or international problem? What measures should be taken to prevent domestic violence, from whom should it be solved, and what harm does its solution cause? By answering fundamental questions, I tried to show in my article that violence is a global problem for all states and to solve this problem.

**Keywords:** Family, household, society, violence, woman, child, individual.